1-2_Layout 1 29.07.2021 15:32 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 14 (604)
31 iyul 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# Əzəli və əbədi Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır

Tarix boyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub. Hər iki xalq istər xoş günlərdə, istərsə də çətin vaxtlarda birlik nümayiş etdirib, bir-birinin sevincini və kədərini bölüşüb. Dövlətlərimiz və xalqlarımız aralarındakı doğma münasibətləri bütün məqamlarda izhar ediblər.

**AZƏRTAC** xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyevin “Əzəli və əbədi Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır” sərlövhəli məqaləsində əksini tapıb. Məqaləni ixtisarla sizlərə təqdim edirik.



Prezident İlham Əliyevin Avropa İttifaqının “Şərq tərəfdaşlığı” Proqramının sammitindəki çıxışı zamanı “Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam” deməsi, dünyanın əksər ölkələrinin planetimizin ən böyük ədalətsizliklərindən birinə - erməni işğalına reaksiya vermədiyi dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir” bəyanatı, Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə söylədiyi nitqində “...Bu gün də Azərbaycanın yanındayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdılarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdilərsə, biz də bu gün və gələcəkdə bərabər olacağıq...” deməklə konkret mövqe ortaya qoyması Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığının bariz nümunələridir.

Dövlətlərimizin və xalqlarımızın bir-birini dəstəklədiyi belə məqamlar saysız-hesabsızdır və onları sadalamaqla bitməz. İyunun 15-də Şuşada imzalanmış “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” isə iki dövlət və onların xalqları arasındakı birliyin, doğmalığın, dostluğun və qardaşlığın növbəti təzahürü oldu. Böyük əhəmiyyətli mühüm tarixi sənəddən bəhs etməzdən əvvəl onun imzalanmasını şərtləndirən qürur dolu tarixə nəzər salmaq yerinə düşər.

Məlum olduğu kimi, Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 2020-ci ildə müdrik rəhbər, qətiyyətli sərkərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə mübariz xalqımız və rəşadətli ordumuz düşmən üzərində parlaq qələbə qazandı. Otuz ilə yaxın müddətdə işğal altında olan dədə-baba torpaqlarımız bu qələbə nəticəsində hərbi və siyasi-diplomatik yolla azad edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Allah Vətən müharibəsində qəhrəmancasına həlak olan bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin!

İşğal altındakı torpaqların azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması Cənubi Qafqazda tamamilə yeni reallıqlar yaradaraq ölkəmizin həm regionda, həm də dünya miqyasında mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirib.

Azərbaycan ilə Türkiyə arasında əlaqələrin ən yüksək səviyyədə olması bütün dünyaya bəllidir. Vətən müharibəsi zamanı hər kəs buna bir daha əmin oldu. Qırx dörd günlük qürur dolu tarixin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bildirdi. Bu da təbii olaraq gücümüzə güc qatmaqla əldə etdiyimiz möhtəşəm tarixi qələbədə mühüm rol oynadı.

Şanlı Qələbənin şərəfinə dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakının ən böyük meydanı olan Azadlıq meydanında möhtəşəm Zəfər Paradı keçirildi. Xüsusi vurğulamaq lazımdır ki, Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında keçirilən Zəfər Paradında Prezident İlham Əliyev ilə çiyin-çiyinə dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Düşmənin ələ keçirilən silah-sursat və texnika ilə yanaşı, dövlətimizin başçısının 2018-ci ildə keçirilən paradda dediyi kimi, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımız da Zəfər Paradında nümayiş etdirildi.

Hər kəsə məlumdur ki, bundan öncə də həmin meydanda bir neçə möhtəşəm parad keçirilib. Bakının azad edilməsinin 100 illiyi münasibətilə 2018-ci il sentyabrın 15-də keçirilmiş paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birlikdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak etmişdi. Ancaq Zəfər Paradının əvvəlkilərdən fərqi ondan ibarət idi ki, həmin gün meydandan düşmən ordusunu darmadağın etməklə ərazi bütövlüyümüzü təmin etmiş Müzəffər Ordunun hərbçiləri qələbə əhval-ruhiyyəsi ilə addımlayırdılar. Hər birimizi hədsiz qürurlandıran və hələ də təəssüratlarının təsiri altında olduğumuz bu parad müstəqil Azərbaycanın ilk Zəfər Paradı idi. Eyni zamanda, Türkiyə-Azərbaycan əbədi qardaşlığının növbəti təzahürü olan bu hərbi parad həm də Azərbaycanı sevməyən ermənipərəst dövlətlər üçün ciddi bir siyasi eyham oldu. Qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da geniş məzmunlu, qardaşlıq, birlik bağlarımıza əsaslanan nitqində vurğuladı ki, “...Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman Ulu Öndər Heydər Əliyevin “bir millət iki dövlət” şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Qarabağın 30 il işğalda qalmasını qəlbimizdə yara bildik. Bu gün də Qarabağın azad edilməsini birlikdə qeyd edirik...”.

Qeyd etmək lazımdır ki, Azərbaycan-Türkiyə müttəfiqliyini, birliyini və qardaşlığını, bir-birinə verdiyi güclü dəstəyi dünya təkcə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük iqtisadi layihələrin reallaşması, Vətən müharibəsi zamanı görməyib. İki qardaş dövlətin birliyi və müttəfiqliyi tarix boyu hər bir dövrdə, bütün məsələlərdə hiss olunub və hər iki ölkə mənəvi, siyasi və digər baxımdan bir-birini daim dəstəkləyib.

Sirr deyil ki, bu gün Türkiyə gündən-günə güclənməklə dünyada çox fəal və önəmli müsbət rol oynayır. Bölgədə gedən proseslərdə də Türkiyənin təsir imkanları artır. Bu da təbii olaraq bizi çox sevindirir. Çünki Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da o qədər güclü olacaq. Türkiyə ilə Azərbaycan arasında əlaqələr çoxşaxəli və genişdir. Əlbəttə ki, bu əlaqələr çox möhkəm tarixi və mədəni köklər əsasında qurulub. Xalqlarımız arasındakı doğmalıq, dostluq, qardaşlıq duyğuları bu əlaqələri daha da möhkəmləndirir. Eyni zamanda, istər nəqliyyat, istər energetika, istər mədəniyyət sahələrində, istərsə də humanitar sahədə birgə reallaşdırdığımız layihələr, birlikdə atılan addımlar bizi bir-birimizə daha da yaxınlaşdırır. Qeyd etmək lazımdır ki, Türkiyə ilə Azərbaycan arasında sıx əlaqələr təkcə xalqlarımız, ölkələrimiz üçün deyil, bölgə və dünya üçün də mühüm əhəmiyyət kəsb edir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bunun təcəssümüdür. Yeri gəlmişkən, Qarabağda Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyəti də regionda sülhün bərqərar olmasının səmərəli mexanizmi kimi diqqəti cəlb edir.

Fərəh və iftixar hisləri ilə vurğulanmalıdır ki, Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən yüksək zirvəsinə ucalıb. Otuzillik işğala son qoyulmasında və Azərbaycanın ərazi bütövlüyünün bərpasında Türkiyənin mənəvi-siyasi dəstəyini dövlətimiz və xalqımız yüksək qiymətləndirməklə heç vaxt unutmayacaq. Eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı tarixi bağlara malik olmağımız ölkələrimizi daha da yaxınlaşdırır və xalqlarımızın sevincli, kədərli günlərdə hər zaman bir-birinin yanında olmalarını şərtləndirir.

Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 15 İyun - Milli Qurtuluş Günündə imzaladıqları “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi” ilə bu yaxınlığın, birliyin, doğmalığın, dostluğun və qardaşlığın yeni - qızıl dövrü başladı.

Qürurverici və sevindirici haldır ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu və qardaşlığı bu gün də uğurla davam edir, xalqlarımız arasındakı saf, səmimi və doğma münasibətlər daha da dərinləşərək yeni mərhələyə qədəm qoyur. Bütün bunlar onu göstərir ki, əbədi və əzəli Azərbaycan-Türkiyə birliyi, dostluğu və qardaşlığı sarsılmazdır və daim belə də olacaq.

# 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

Avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir. Bu əlamətdar gün Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən təsis edilib. Ulu Öndər həmin Fərmanı latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqustunda bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq imzalayıb.

Sovet dövründə yaranmış əngəllərə baxmayaraq, sarsılmaz təməlləri olan Azərbaycan dili mövcudluğunu qoruya bilib. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində müstəqil Dilçilik İnstitutunun yaranması dilçiliyimizin bir elm kimi inkişafına ciddi təkan verib. Sonrakı illərdə Azərbaycan dilinin mövcud təhlükələrdən qorunması və gələcək nəsillər üçün mühafizə edilməsi istiqamətində Ulu Öndər Heydər Əliyevin xidmətlərini xüsusi qeyd etmək lazımdır. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edilən zaman oraya dövlət dili haqqında maddənin salınmaması ilə heç cür barışmayan Ümummilli Lider bu məsələdə sonadək öz prinsipial mövqeyini göstərib. 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Ali Sovetin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təkidi ilə 73-cü maddəni yeni dəyişikliklə vermək qərara alınır. Bu dəyişiklik Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin Azərbaycan dili olduğunu əks etdirir. Bütün çətinliklərə baxmayaraq, Ümummilli Liderin bu cür tarixi qərara nail olması mənəvi varlığımızın əsası sayılan dilimizin inkişafında böyük addım oldu.

**“Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir!”**
***Heydər Əliyev***




Müasir müstəqil Azərbaycan Respublikasında dilimizin qorunması və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərə nəzər salır. Azərbaycan dilinin qloballaşma dövrünün mənfi təsirlərindən qorunması və inkişaf etdirilməsi istiqamətində Ulu Öndərin səyləri xalqımız üçün əvəzedilməz töhfələrdir. Ümummilli Liderin 2001-ci il iyulun 18-də imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında”, həmin il avqustun 9-da imzaladığı “Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında” fərmanlar ana dilimizin qorunması və inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir. 2003-cü il yanvarın 2-də isə Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib. Qanunda dövlətin ana dilinə qayğısı istiqamətində əsas vəzifələr dəqiq göstərilib.

Bütün maneələrə və çətinliklərə baxmayaraq, ana dilimizi qorumaq üçün böyük addımlar atan Ümummilli Liderin siyasi xətti Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısının 2004-cü il yanvarın 12-də imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” Sərəncamı ilə hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanır. Bundan başqa, həmin il yanvarın 14-də “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında”, eləcə də 2007-ci il dekabrın 30-da “Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında” sərəncamlarla ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşib. Müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Azərbaycan Prezidentinin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nı 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq etməsi milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisədir. Dövlət Proqramının məqsədi 2013-2020-ci illər ərzində Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasıdır. Sənəd, eyni zamanda, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini nəzərdə tutur. Dövlətimizin başçısının “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 1 noyabr tarixli Fərmanı təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və ana dilimizin inkişafına yönəlmiş məqsədyönlü dil siyasətinin uğurlu davamıdır.

**AZƏRTAC**

# “ƏN ÇƏTİN İMTAHANI DÖYÜŞ MEYDANINDA VERDİK...”

## *99713 saylı hərbi hissənin “Şahin”ləri Vətən müharibəsi zamanı döyüş sınağında cəsurluq nümunəsi göstəriblər*

Hərbi hissənin xüsusi əhəmiyyət kəsb edən bölmələrindən biri də xüsusi təyinatlı dəstədir. Hər dəfə xidməti ezamiyyətdə olarkən hərbi hissələrin xüsusi təyinatlılarının fəaliyyətini qəzetimizin səhifələrində işıqlandırmaq qarşımızda duran əsas prioritetlərdəndir. Bu günlərdə Daxili Qoşunların 99713 saylı hərbi hissəsinə ezamiyyətim zamanı ilk işim xüsusi təyinatlı dəstənin qərargahına getmək oldu. Burada öyrəndik ki, cari ilin birinci yarımilinin xidməti-döyüş fəaliyyətinin və hərbi intizamın yekunlarına görə xüsusi təyinatlı dəstə fərqlənərək birinci yeri qazanıb. Əslində, müharibə sınağından üzüağ çıxan bölmənin şəxsi heyəti üçün bu uğur gözlənilən idi.



Bölmə komandiri, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Zəfər Yusibov fəaliyyət istiqamətlərindən danışarkən bildirdi ki, dəstənin əsas vəzifəsi ictimai təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, o cümlədən, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsidir. Bununla belə, zərurət ol-



duqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etmək qanunla müəyyən edilmiş vəzifədir ki, icrasında şəxsi heyətin hazırlığı əsas məsələlərdən biridir. Yüksək döyüş hazırlığını qoruyub saxlamaq məqsədilə şəxsi heyət mütəmadi olaraq real döyüş şəraitinə uyğunlaşdırılmış təlimlərə cəlb olunur. Hər zaman olduğu kimi, bu gün də praktiki məşğələlərə üstünlük verildiyini deyən komandir xüsusi təyinatlı bölmələrin şəxsi heyətinin ayda 1 dəfə olmaqla 2-3 günlük “Dəstə reyd fəaliyyətində” mövzusunda xüsusi-taktiki təlimlərə cəlb olunduğunu nəzərimizə çatdırdı. Vurğuladı ki, məşğələlər xüsusi-taktiki hazırlıq, hərbi dağçılıq, hərbi topoqrafiya, hərbi mühəndis hazırlığı, ləpirçilik, həmlə-desant hazırlığı mövzularında keçirilir.

Təlimlərin keçirilməsi üçün öncədən məkan müəyyənləşdirilir, şəxsi heyətin təyin olunmuş əraziyə marşı keçirilir. Basqın, pusqu, axtarış, kəşfiyyat və digər növləri özündə ehtiva edən təlimlər zamanı şəxsi heyətin bilik və bacarığı, həmçinin, dözümlülük keyfiyyəti artırılır, cinayətkarların axtarılması və tutulması zamanı taktiki üsullar aşılanır, komandir heyətində isə real döyüş şəraitinə uyğun düzgün qərarların qəbul edilməsi təkmilləşdirilir. Keçirilən praktiki məşğələlərin şəxsi heyətin peşə vərdişlərinin artırılmasında çox əhəmiyyətli rol oynadığını xüsusilə vurğulayan polkovnik Z.Yusibov bunun bariz nümunəsinin İkinci Qarabağ müharibəsində təsdiqini tapdığını dedi: “Müharibədən öncə bir amalımız varıydı, bütün təlimlər gələcəkdə torpaqlarımızın azad olunmasına iradəli, cəsur xüsusi təyinatlıların hazırlanmasına xidmət edirdi. Keçirilən təlimlərdən anlayırdıq ki, gözlədiyimiz an üçün hazırlıq gedir. Otuz ilə yaxın düşmənin qurduğu istehkamları yarmağın asan olmayacağını bilirdik. Döyüş və mənəvi-psixoloji hazırlığı, təminatı və təchizatı ilə Azərbaycan əsgəri düşməndən qat-qat güclü idi. Komandir olaraq həm verilən tapşırıqları yerinə yetirməli, həm də tabeliyimizdəki şəxsi heyətin həyatını qorumaq üçün əlimizdən gələni etməliydik. Ancaq müharibə itkisiz olmur, heç bir qələbə qurbansız qazanılmır. Ən çətin imtahanı döyüş meydanında verdik. Dəyərdim ki, bir sıra strateji postların alınmasında Daxili Qoşunların hərbi qulluqçuları, sözün əsl mənasında, yaddaşlara həkk olunacaq fədakarlıqlar göstəriblər. Çünki düşmən mövqe tutduğu və möhkəmləndiyi strateji yüksəklikləri ağır silahlarla qoruyurdu. Həmin yüksəkliklərə qalxmaq, oranı geri almaq üçün Azərbaycan əsgəri yüngül atıcı silahlarla tanka, topa qarşı döyüşürdü, cəsarəti, yüksək mənəvi-psixoloji durumu, içindəki inam hissi onu irəli aparırdı. Bax, bu idi bizim illərlə apardığımız işin nəticəsi. Otuz ilə yaxın düşmən tapdağında qalmış doğma torpaqlarımızı azad etmək üçün təbii ki, müharibə taktikasını mənimsəyən, xidmətdə dözümlülük nümayiş etdirən xüsusi təyinatlı qüvvələrə ehtiyac varıydı. Onları yetişdirmək isə illər boyu keçirilən təlimlərin, sınaqların və kursların keyfiyyətindən asılı olub. Bu kontekstdə, ümumilikdə, Azərbaycan Silahlı Qüvvələrinin xüsusi təyinatlıları yaxşı mənada nöqtəni qoydu...”.

Şəxsən şanlı qələbəmizin qazanılmasında iştirak etdiyi üçün qürur hissi keçirən illərin peşəkarı polkovnik Z.Yusibov bu gün də dəstədə hərbi qulluqçuların döyüş hazırlığının qənaətbəxş hesab edir, məşğələlərdə şəxsi heyətin fəallığını onların mənəvi-psixoloji keyfiyyətlərinin yüksək olması ilə əlaqələndirir. Onun fikrincə, hər bir xüsusi təyinatlı öz hərbi peşəsini, vəzifə borclarını dərindən öyrənməli, fərdi qaydada, heyət, yarımqrup, qrup və dəstə tərkibində üzərinə düşən tapşırıqların yerinə yetirilməsində, əzmkar praktiki vərdişlərin əldə edilməsində maraqlı olmalıdır. Təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanı bacarıqla tətbiq etməlidir. Hərbi qulluqçuların yetişdirilməsində xarici dövlətlərin təcrübəsindən faydalanmağa üstünlük verilir. Əsas etibarilə Türkiyə Respublikasının xüsusi təyinatlılarının təlim proqramına və döyüş təcrübəsinə istinad olunur. Şəxsi heyətin geyiminin və təchizatının müasir tələblərə uyğun formalaşdırılması qarşıda duran prioritet məsələlərdir.



Ümumiyyətlə, dəstənin hərbi qulluqçularının praktiki hazırlığının təkmilləşdirilməsi istiqamətində yaradılan hər cür şəraitə görə daxili işlər nazirinə və daxili işlər nazirinin müavini-daxili qoşunların komandanına dərin minnətdarlığını bildirən polkovnik Z.Yusibov qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsinə bundan sonra da yorulmadan, arxayınlaşmadan hazırlıqların davam etdiriləcəyini vurğuladı: “Son olaraq, xüsusi təyinatlı dəstənin komandiri kimi hərbi hissələrimizdə xüsusi təyinatlı bölmələrin hər bir hərbi qulluqçusunun gələcəkdə “Şahin” xüsusi təyinatlı dəstəsinin sıralarında xidmət etmək üçün fiziki, psixoloji və peşəkarlıq baxımından hazır olmasını arzu edir, bu yolda üzərilərində durmadan çalışmalarını tövsiyə edirəm”.



**baş leytenant**
**Nigar Ağayeva**

## DAXİLİ QOŞUNLARIN TƏLİM MƏRKƏZİNDƏ NÖVBƏTİ METODİKİ-TƏLİM TOPLANIŞI KEÇİRİLİB

“2021-ci ildə Daxili Qoşunlarda əsas tədbirlərin, döyüş təliminin planlaşdırılması və təşkilinə dair təqvim planı”na uyğun olaraq, iyulun 13-14-də Daxili Qoşunların Təlim mərkəzində bölük (batareya), bölmə komandirləri ilə metodiki-təlim toplanışı keçirilib. Toplanışın məqsədi bölük (batareya), bölmə komandirlərinin nəzəri biliklərinin, metodiki hazırlıqlarının yoxlanılması, praktik atış qabiliyyətlərinin və fiziki hazırlıq səviyyələrinin müəyyən edilməsi, bu istiqamətdə qabaqcıl təcrübənin öyrənilməsi olub.



Bununla əlaqədar daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının əmri və müvafiq sənədlər hazırlanıb. Təlim toplanışına, ümumilikdə, 92 nəfər hərbi qulluqçu cəlb edilib.



Təsdiq olunmuş məşğələ cədvəlinə əsasən, Baş İdarənin zabitləri tərəfindən bölüyün (bölmənin, batareyanın) qüvvə və vasitələrinin xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlığı, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi üzrə qərarın qəbul olunması, döyüş sənədlərinin hazırlanması və işlənməsi, bölükdə tərbiyə işinin təşkili, hərbi kollektivin möhkəmləndirilməsində bölük komandirinin rolu, bölük təsərrüfatının təşkili, təhlükəsizlik qaydaları və qəzaların qarşısının alınması kimi aktual istiqamətləri əhatə edən mövzular üzrə məşğələlər keçirilib. Bundan əlavə, qoşunların taktiki fəaliyyətinin və şəxsi heyətin öyrədilməsində yeni üsulların tətbiqi üzrə vahid baxışın formalaşdırılması, ötən dövr üzrə xidməti-döyüş fəaliyyətinin yekunları, şəxsi heyətin təlim və tərbiyəsi ilə bağlı, eləcə də xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinə dair vəzifələrin dəqiqləşdirilməsi məqsədilə fikir mübadiləsi aparılıb.

Təlim toplanışının iştirakçılarından avtomatdan 2-ci təlim atış çalışmasının, fiziki hazırlıq üzrə isə 1, 5, 7 və 8 nömrəli normativləri yerinə yetirməklə praktiki, eləcə də metodiki hazırlıq, Silahlı Qüvvələrin nizamnamələri, Daxili Qoşunların taktiki və ümumqoşun hazırlığı təlim fənləri üzrə nəzəri biliklərin yoxlanılması üzrə imtahanlar qəbul edilib.

Sonda Daxili Qoşunların Baş İdarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı idarəsinin rəisi - qərargah rəisinin müavini polkovnik Zəfər Əliyevin rəhbərliyi ilə keçirilən xidməti müşavirədə toplanışın nəticələri təhlil olunub, çatışmazlıqların aradan qaldırılması, hərbi qulluqçuların fiziki hazırlıqlarının yüksək səviyyədə saxlanılması, eləcə də nəzəri biliklərinin və praktiki bacarıqlarının artırılması üçün tapşırıqlar verilib.

**kapitan Xədicə Hacızadə**

## Şəxsi heyətin sağlamlıq durumu ən vacib şərtlərdəndir

Şəxsi heyətin sağlamlığının qorunması həmişə diqqət mərkəzindədir. Sağlamlıq amili döyüş hazırlığına bilavasitə təsir göstərir.

25032 saylı hərbi hissədə xidməti ezamiyyətim zamanı tibb xidmətinin fəaliyyəti ilə tanış olmaq üçün tibb məntəqəsində oldum. İlk olaraq, tibb işçilərinin və xəstə hərbi qulluqçuların təmiz, səliqəli geyim formasında olmaları, onların üzlərindəki təbəssüm, otaqların səliqə-sahmanı və havalandırılması diqqətimi cəlb etdi.



Hissə komandanlığının da ciddi nəzarətdə saxladığı sahələrdən biri tibb xidmətinin fəaliyyətidir, hansı ki, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra edir.

Hərbi qulluqçuların sağlamlığının önəmli olduğunu deyən tibb xidmətinin rəisi vəzifələrini icra edən tibb xidməti leytenantı Elvin Tağıyev bildirdi ki, qarşıda duran əsas vəzifələrdən biri şəxsi heyətin sağlamlığının möhkəmləndirilməsidir.

Qeyd edim ki, tibb xidməti leytenantı Elvin Tağıyev Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsini bitirib və zabit kimi 2020-ci il iyul ayından bu hərbi hissədə xidmət edir.

Zabitimiz şəxsi heyətin sağlamlığının qorunması barədə məlumat verərkən nəzərə çatdırdı ki, havaların kəskin isti keçməsi ilə əlaqədar olaraq profilaktik tədbirlər görülməkdədir. Belə ki, şəxsi heyətə gün şüalarının birbaşa təsirinin qarşısının alınması məqsədilə bütün tədbirlər gündən qorunan sahələrdə keçirilir. Hərbi qulluqçuların su təminatı nəzarətdə saxlanılaraq, suyun fiziki, kimyəvi və bakteoroloji müayinələri aparılır. Şəxsi heyətin qum-qumlarda daima



qaynadılmış su ilə təminatı diqqət mərkəzindədir.

Tibb xidməti leytenantı E.Tağıyev plana uyğun olaraq, tədris bölüklərinin şəxsi heyəti ilə hərbi tibbi hazırlıq üzrə məşğələlərin keçirildiyini dedi. Qeyd etdi ki, məşğələlər zamanı hərbi qulluqçulara ilkin tibbi yardımın göstərilməsi, eləcə də onların sağlamlığının qorunması qaydaları öyrədilir. Məntəqəyə müraciət edən hərbi qulluqçular zərurət olduqda ambulator müayinə üçün Şirvan Şəhər Mərkəzi Xəstəxanasına aparılır və əməliyyat olunurlar.

Hərbi hissədə sanitar-gigiyenik vəziyyət hər zaman nəzarətdə saxlanılır. Hərbi qulluqçuların təhlükəli infeksiyaya yoluxmasının qarşısının alınması, onların sağlamlığının qorunması məqsədilə profilaktik tədbirlər həyata keçirilir.

Tibb məntəqəsində sanitar-təlimatçı dezinfektor baş çavuş Pərvin Gülmalıyeva tərəfindən həftə ərzində əsgər kazarmalarında, bölmələrdə, qarovul məntəqəsində, qərargah binasında mütəmadi olaraq dezinfeksiya işləri aparılır, həmçinin, aptek rəisi vəzifələrinin icrası da ona həvalə olunduğundan, bölükləri tibbi preparatlarla fasiləsiz təmin edir, tibbi avadanlıqların saz vəziyyətdə saxlanılmasına, sterilizasiyasına diqqət yetirir.

Görülən bu işlərin əsas məqsədi əsgərlərimizin daim sağlam və güclü olmasıdır.

**kapitan Sadıq Rəfiyev**

3_Layout 1 30.07.2021 9:10 Page 1



*Şəhidlərimiz*

# MUROVDAĞ UĞRUNDA DÖYÜŞLƏRDƏ ÖZ İGİDLİYİ İLƏ FƏRQLƏNƏRƏK ƏBƏDİYYƏTƏ QOVUŞDU...

Xalqımız hər bir şəhidin adını uca tutur, xatirəsinə ehtiram göstərir. Vətənin dar gündə onun müdafiəsi, işğal olunmuş torpaqlarımızın azad edilməsi naminə şəhidlik zirvəsinə ucalan bu oğullar öz igidlikləri ilə xalqımız üçün şərəfli bir tarixin bünövrəsini qoyublar. Bu gün məhz şəhid və qazilərimizin fədakarlığına görə qalib dövlət və xalq pilləsinə yüksəlmişik, bizə Xocalı faciəsini yaşatmış düşməndən qisas almışıq, yüz minlərlə soydaşımızın "məcburi köçkün" adlandırılmasına son qoymuşuq, viran qalan yurdlarımızın dirçəldilməsinə başlamışıq, "Qarabağ Azərbaycandır!" şüarını Qarabağın tacı sayılan Şuşada səsləndirmək imkanı əldə etmişik, paytaxtımızda təcavüzkar Ermənistanın hərbi gücünün darmadağın olunmasını əyani göstərən Hərbi Qənimətlər Parkını yaratmışıq.

Dövlətçilik və hərb tariximizin unudulmaz səhifəsi olan 44 günlük Vətən müharibəsində Daxili İşlər Nazirliyinin Daxili Qoşunları öz missiyasını rəşadətlə yerinə yetirdi. Müharibənin ilk günündən son gününədək hərbi qulluqçularımız ön cəbhənin müxtəlif istiqamətlərində cəsarətlə vuruşaraq erməni işğalçılarını məğlubiyyətə uğradıblar. Döyüşlərdən 66 nəfər hərbi qulluqçumuz öz ailəsinə sağ qayıtmayıb. "Əsgər" qəzetinin redaksiyası artıq 8 aya yaxındır ki, onlar haqqında ailələrindən, silahdaşlarından məlumatlar toplayır və məqalələr hazırlayır.

Şəhid hərbi qulluqçularımızın siyahısında baş çavuş Həsənov Tofiq Etibar oğlunun da adı var. O, 21 noyabr 1989-cu ildə Gədəbəy rayonunun Cəfərli kəndində anadan olub. Etibar Həsənov və Telli Həsənovanın qurduğu ailənin böyük övladı olan Tofiqin (bir qardaşı və iki bacısı var) babası Səyyad Həsənov İkinci Dünya müharibəsində iştirak edib. Əmisi Əkbər Həsənov isə Birinci Qarabağ müharibəsinin iştirakçısıdır.

Tofiq doqquz il Cəfərli və iki il Kiçik Qaramurad kəndlərindəki orta məktəblərdə təhsil alıb. Şagird kimi çalışqan olub, tələbə adını qazanmaq onun əsas arzularından biri idi. Qəbul imtahanından uğurla keçsə də, ödənişli qrupa düşdüyündən ali təhsil ala bilməyib.

Hərbi xidmətə qədər kənddə ev təsərrüfatı ilə məşğul olaraq, valideynlərinə öz



köməyini əsirgəməyib. Ailə qayğılarına heç vaxt laqeyd qalmayıb. Ədəb-ərkanlı, xeyirxah gənc olaraq həmkəndliləri arasında hörmət qazanıb.

2008-ci ilin yanvar ayında Tofiq müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2009-cu ilin iyul ayınadək Daxili Qoşunların 99713 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. Həmin aydan etibarən Tofiqin Daxili Qoşunların sıralarında müddətdən artıq həqiqi hərbi xidməti başlayıb. Əvvəlcə 16075 saylı hərbi hissədə xüsusi təyinatlı taqımın həmlə manqasında atıcı vəzifəsinə təyin olunub. 2010-cu ilin fevral ayından 2018-ci ilin iyun ayınadək 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində xüsusi həmlə qrupunun yarımqrupunda atıcı, atəş təminatı qrupunda AQS-17 qumbaraatanın komandiri, AQS-17 qumbaraatan yarımqrupunun komandiri vəzifələrində xidmət edib. 2018-ci ilin iyun ayında isə 17074 saylı hərbi hissəyə keçirilərək, xüsusi təyinatlı dəstədə xüsusi həmlə qrupunun yarımqrupunda pulemyotçu vəzifəsi ona həvalə edilib. Tutduğu vəzifələrdə komandanlığın etimadını doğruldub.

Xüsusi təyinatlı kimi öz məharəti sayəsində "Zoğalı beret" daşıma hüququna sahiblənib. Ümumilikdə, təlimlərdə və məşğələlərdə döyüş hazırlığının yüksəldilməsi üçün əzmkarlıq göstərib. Ona təhkim olunan silahlardan həmişə sərrast atəş açıb. Qarşıya qoyulan xidməti tapşırıqların yerinə yetirilməsi zamanı ayıq-sayıqlığı, çevikliyi ilə fərqlənib.

Nümunəvi hərbi xidməti nəzərə alınaraq, dəfələrlə komandanlıq tərəfindən mükafatlandırılıb. 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalına layiq görülüb.

2020-ci ilin 27 sentyabrında başlayan Vətən müharibəsi Tofiq kimi Qarabağ münaqişəsinin alovlandığı illərdə və sonrakı dövrdə doğularaq boya-başa çatan gənclərin həyatında ən çətin sınaq oldu. Bu gənc nəsil o çətin sınaq qarşısında büdrəmədi, yenilməzlik nümunəsi göstərdi.

Baş çavuş T.Həsənov 17074 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin hərbi qulluqçuları və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları ilə birgə müharibənin ilk günündən döyüş əməliyyatlarına cəlb olunub. Bir neçə gün çəkən döyüş yolu Kəlbəcər rayonu istiqamətində, Murovdağ ərazisində keçib. Mürəkkəb relyefə, dəyişkən iqlimə malik Murovun sıldırım qayalarında, sərt aşırımlarında, çətin qalxılan zirvələrində xüsusi təyinatlılarımız düşmənə qarşı rəşadətlə vuruşublar. Burada onların qarşısına qoyulan əsas döyüş tapşırığı düşmənin illərlə möhkəmləndirdiyi postların məhv edilməsi və strateji yüksəkliklərin ələ keçirilməsi olub. Şiddətli döyüşlər zamanı erməni işğalçılarına tutarlı zərbələr vurulub.

17074 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı, "Zəfər" ordenli mayor Sahib İbrahimov bildirdi ki, Tofiq nizam-intizamlı, funksional vəzifələrinə məsuliyyətlə yanaşan, hərbi kollektivin hörmətini qazanan, təmkinli və iradəli hərbi qulluqçu olub. Xüsusi təyinatlı kimi iştirak etdiyi yarışlarda qalib yerləri tutub. Hərbçi peşəsinə rəğbət bəsləyib, özünü daim Vətənin müdafiəsinə hazırlayıb. Komandir söylədi ki, Tofiq müharibəyə də ruh yüksəkliyi ilə yollanıb, Vətənə məhəbbət, hərbi anda sədaqət, düşmənə nifrət hissi ilə vuruşub. Xüsusi təyinatlı olaraq peşəkar hazırlığı döyüş sınağında onun köməyinə yetib, çətin keçilən ərazidə, atəş altında qətiyyət nümayiş etdirib.

"Orta Camış" adlanan yüksəklik ərazisində hücuma keçən qrupun tərkibində olan Tofiq pulemyotçu kimi düşməni canlı qüvvə sarıdan ciddi itkiyə məruz qoyub. Həmçinin, işğalçıların bir neçə atəş nöqtəsini susdurub.

Mayor S.İbrahimov məlumat verdi ki, 2020-ci il sentyabrın 30-da səhər saatlarında hərbi qulluqçularımıza Kəlbəcər rayonu istiqamətindən digər ön cəbhə istiqamətinə hərəkət etmək tapşırığı verilib. Avtomobil karvanı hərəkətə başlayarkən düşmən artilleriyasının şiddətli atəşinə məruz qalıb. Tofiq avtomobildən yerə tullanıb mövqelənmək istədikdə partlayan minaatan mərmisinin qəlpəsindən ağır yaralanaraq şəhid



olub. Mərhumun nəşi həmin gün döyüş zonasından təxliyyə edilib.

16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi, Vətən Müharibəsi Qəhrəmanı kapitan Nicad Bədəlov qeyd etdi ki, Tofiqi 2018-ci ildən tanıyıb. Onu vətənpərvər, əsl döyüş ruhlu hərbi qulluqçu kimi xatırladığını dedi. Kəlbəcər istiqamətində döyüşlərdə Tofiqin qorxmazlığı ilə seçildiyini, həmişə öndə getdiyini, ön cəbhə şəraitində çətinlikləri dəf etməyi bacardığını nəzərə çatdırdı. Zabit onu da bildirdi ki, Murovdağ döyüşlərində xüsusi təyinatlılarımızdan gizir Sərxan Abdullayev də şəhidlik zirvəsinə ucalıb.

17074 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində atıcı-radiotelefonçu, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu, Vətən müharibəsi iştirakçısı çavuş İbrahim Bəşirov da Tofiqin düşmənə qarşı igidliklə vuruşduğunu, Qarabağdan qalib döyüşçü kimi qayıtmağı arzuladığını vurğuladı. O, Vətən müharibəsində hərbi zəfərimizlə bütün şəhidlərin qisasının alındığını söylədi.

Şəhid hərbi qulluqçumuz Gədəbəy rayonu Cəfərli kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Tofiq Həsənov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

2021-ci ildə işıq üzü görən, "Aran" Uşaqların Sağlam Gələcəyi İctimai Birliyinin sədri İbrahim Hüseynovun tərtibçisi olduğu "Qələbə şəhidləri" kitabında baş çavuş T.Həsənov haqqında məlumat verilib.

"İctimai" və "Xəzər" televiziya kanallarında, habelə sosial şəbəkələrdə şəhid hərbi qulluqçumuzun döyüş yolu işıqlandırılıb.

Tofiq 2013-cü ilin oktyabr ayının 18-də ailə qurub. Toyunun Dövlət Müstəqilliyi Günündə keçirilməsi onun istəyi olub. Ülviyyə xanımla qurduğu xoşbəxt ailəsində bir qız və bir oğul övladı dünyaya gəlib. Qızının adı Melisa, oğlunun adı isə Tunardır. Qızının gələcəkdə həkim olmasını, oğlunun böyüyüb layiqli şəkildə hərbi xidmət keçməsini arzulayıb.

Ülviyyə xanımla söhbət zamanı nəzərə çatdırdı ki, Tofiq valideynlərinə, qaynatası, qaynanasına, qardaşı və bacılarına qayğı ilə yanaşıb, övladlarına mehriban ata olub. O, qohumları və tanışları arasında olan bəzi atasız usaqlara həmişə maddi yardım göstərib. Ümumilikdə, yardımsevər, çətinlikdə olanın köməyinə yetişən insan kimi yadda qalıb. Valideynləri Cəfərli kəndində yaşayırlar, atası da, qaynatası da əlildirlər. Qardaşı Təbriz Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin müddətdən artıq xidmət edən hərbi qulluqçusudur.

Ülviyyə xanımın sözlərinə görə, Tofiq sonuncu dəfə sentyabrın 25-də evdə olub, təlimə gedəcəklərini deyib, ona uşaqlardan muğayat olmağı tapşırıb. Sentyabrın 26-da isə zəng edərək, xəstələnmiş oğlunun səhhəti ilə maraqlanıb. Sonra isə xəbərsizlik içində keçən həyəcanlı günlər və ölüm xəbəri...

Ailə tərəfindən şəhidin bəzi əşyaları Milli Tarix Muzeyinə saxlanmaq üçün verilib, orada Vətən müharibəsinə aid ekspozisiya yaradılıb.

Şəhidə həsr olunan və qızının dilində çox təsirli səslənən şeirdə belə misralar var:

*Mənim atam qəhrəmandı, qorxmazdı!*
*Nə qədər fəxr etsəm onunla azdı!*
*Adı Tofiq idi, unudulmazdı!*
*Murovdağda ayaq izləri qaldı!*

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**Yalçın Abbasov**

*Qazilərimiz*

# "İkinci dəfə Şuşa ətrafında, doğum günümdə yaralandım..."

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 44 gün davam edən Vətən müharibəsi zamanı yaralanmış hərbi qulluqçularının həyat və döyüş yolundan bəhs edən "Qazilərimiz" rubrikasının növbəti qəhrəmanı cəsur silahdaşımız mayor Məmmədov Elşən Tağı oğludur.

Mayor Elşən Məmmədov 1973-cü il noyabrın 5-də Bakı şəhərində anadan olub. Orta təhsilini Nəsimi rayonundakı 28 saylı tam orta məktəbdə alıb. Sərbəst güləş Elşənin ən çox sevdiyi idman növü olub. Hələ 10 yaşından sərbəst güləşlə məşğul olduğundan, iştirak etdiyi bir çox yarışda, o cümlədən, beynəlxalq turnirlərdə dəfələrlə qələbələrə imza atıb, "İdman ustası" fəxri adını qazanıb. İdmana olan böyük marağı səbəbindən Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunda (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) "Bədən tərbiyəsi və idman" ixtisası üzrə ali təhsil alıb. Müddətli həqiqi hərbi xidmətini 1991-1995-ci illərdə Daxili Qoşunların 12318 saylı hərbi hissəsində keçib. Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda Füzuli rayonu ərazisində gedən döyüş əməliyyatlarında iştirak edib. 1995-ci ilin yanvar ayından müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirən silahdaşımız 2013-cü ilin aprel ayınadək qoşunların 12318, 25035 (hazırda mövcud deyil), 16075 saylı hərbi hissələrində, Tədris Mərkəzində (hazırda Ali Hərbi Məktəb), eləcə də Daxili Qoşunların Baş İdarəsində müxtəlif vəzifələrdə qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirib. Yüksək döyüş hazırlığı və hərbi intizamı ilə hər zaman böyük rəislərin etimadını doğruldub, birgə xidmət etdiyi kollektivin hörmətini qazanıb. Nümunəvi və qüsursuz xidmətilə fərqlənən zabitimiz "Hərbi xidmətlərə görə", 3-cü dərəcəli "Hərbi xidmətdə fərqlənməyə görə", 1-ci, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə", "Azərbaycan Respublikası Silahlı Qüvvələri Veteranı" medalları, həmçinin, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 10 illiyi (1991-2001)", "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi




(1918-2008)" və "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1918-2013)" yubiley medalları ilə, eləcə də Daxili Qoşunlar və hərbi hissə komandanlığı tərəfindən dəfələrlə bir sıra mükafatlarla təltif edilib.

2013-cü ilin aprel ayından 16073 saylı hərbi hissənin "Bəbir" şərti adı verilmiş xüsusi təyinatlı dəstəsində dəstə komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində xidmətini davam etdirən mayor E.Məmmədov cəsur xüsusi təyinatlılarımızın mənəvi-psixoloji durumunun, o cümlədən, hərbi vətənpərvərlik tərbiyəsinin və döyüş ruhunun yüksəldilməsinə öz layiqli töhfəsini verib. Məhz bu dəstənin zabiti kimi 44 gün davam edən Vətən müharibəsində Murovdağdan başlayaraq Şuşayadək şanlı döyüş yolu keçib, tabeliyində vuruşan silahdaşları ilə birgə düşmənin canlı qüvvə və hərbi texnikasının məhv edilməsində cəsurluq göstərib.

Müharibə xatirələrini bizimlə bölüşən mayor E.Məmmədov iki dəfə yaralanmasına baxmayaraq, bu gün də Vətən uğrunda döyüşməyə və onun yolunda canından belə keçməyə hazır olduğunu dedi: "Dəstəmiz sentyabrın 27-dən döyüş əməliyyatlarında iştirak edib. Vətən müharibəsi zamanı dəstəmizin bütün şəxsi heyəti dəstə komandiri mayor Şixamir Qaflanovun rəhbərliyi altında, mən isə rütbəmə uyğun vəzifə olmadığından Müdafiə Nazirliyinin Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissəsinin tərkibində, xüsusi təyinatlılarla birgə döyüş əməliyyatlarında iştirak etməli oldum. Burada xüsusi silahlar dəstəsində qərargah rəisi vəzifəsini icra etdim. Dəstəmizin qarşısına düşmənin tank və digər zirehli texnikasını məhv etmək tapşırığı qoyulmuşdu. Silahlanmamız "Spayk" raketi, "SPQ-9" tank əleyhinə qumbaraatan və iriçaplı snayper silahından ibarət olduğu üçün döyüş tapşırığına uyğun, bizim şəxsi heyəti kiçik qruplara bölərək, digər dəstələrin tərkibinə ayırmışdılar.

Goranboy rayonu ərazisindən, "Orta Camış" adlanan yüksəklikdən Kəlbəcər istiqamətinə doğru ilk döyüşümüz oldu. Dəstəmizin tərkibində vuruşan və Müdafiə Nazirliyinin əsgəri olan ilk şəhidimizi də məhz bu döyüşdə verdik. Lakin, buna baxmayaraq, dörd gün davam edən döyüşlər zamanı hərbi qulluqçularımızın sərrast atəşi ilə ermənilər canlı qüvvə və hərbi texnika sarıdan xeyli itki verdilər. Silah-sursatını və hərbi texnikasını döyüş meydanında atıb qaçmaq acı məğlubiyyətə uğramış düşmənin yeganə çıxış yolu idi. Sonra bizi Cəbrayıl istiqamətinə gətirdilər".

Bir neçə gündən sonra Cəbrayıl istiqamətində gedən hərbi əməliyyatlara qatıldığını və oktyabrın 3-də ilk dəfə burada ayağından dəlib keçən güllə yarası aldığını deyən mayor E.Məmmədov əvvəlcə Lələtəpə ətrafında yerləşən tibb məntəqəsinə gətirildiyini, burada tibbi yardım aldıqdan sonra Füzulinin Əhmədbəyli kəndindəki tibb məntəqəsinə, oradan da Biləsuvar Rayon Mərkəzi Xəstəxanasına təxliyyə olunduğunu bildirdi: "Burada dörd gün müalicə aldıqdan sonra, yaram nisbətən sağaldığından və özümü yaxşı hiss etdiyimdən, yenidən ön cəbhəyə, dəstəmizin yanına qayıtdım. O zaman dəstəmiz növbəti döyüş planına uyğun müvəqqəti olaraq Cəbrayıl istiqamətindən Müdafiə Nazirliyinin Beyləqanda yerləşən "N" saylı hərbi hissəsinə gətirilmişdi. Səhərisi gün Füzulidə yerləşən düşmən mövqeləri üzərinə hücuma keçəcəkdik".

Elşən bu arada Beyləqanda olarkən vaxtilə birgə xidmət etdiyi mayor Ş.Qaflanovla aralarında olan sonuncu söhbəti xatırlayaraq, onun şəhid olmasına hələ də inana bilmədiyini dedi: "Mayor Qaflanovla sonuncu dəfə Beyləqanda olarkən telefonla danışmışdıq. "İstiqamətiniz haradır" - deyə mənə sual verdi. Mən isə ona: "istiqamətimiz Füzulidir, komandir" - dedim. O da mənə: "Elə bizim də istiqamətimiz oradır. Allah hamımıza kömək olsun" - dedi. Ondan sonra nə özünü gördüm, nə də səsini eşitdim. Allah ona və bütün şəhidlərimizə rəhmət eləsin!".

İştirak etdiyi uğurlu Füzuli döyüşlərindən sonra Şuşa istiqamətində gedən hərbi əməliyyatlara qatıldığını qeyd edən mayor E.Məmmədov, hər cür çətinliklərə rəğmən, qarşılarına qoyulan bütün döyüş tapşırıqlarının xüsusi təyinatlılarımızın qəhrəmanlığı sayəsində yerinə yetirilməsindən böyük qürur hissi keçirdiyini bildirdi: "Şuşa döyüşlərinə qədər dəstəmizin şəxsi heyətinin bir çoxu yaralanmış və şəhid olmuşdu. Ona görə də dəstə komandiri və mən döyüşlərə artıq heyət nəfəri kimi qatılmışdıq. Bizi polkovnik-leytenant Füzuli İmrəliyevin komandiri olduğu dəstənin tərkibinə vermişdilər. "Spayk" raketinin aparatını dəstə komandiri, raketləri isə biz özümüz daşıyırdıq. Bu vəziyyətdə Şuşa istiqamətində üç gün yol getməli olduq. Qarşımıza Şuşa şəhərinə ön qapıdan daxil olmaq üçün ətrafdakı təpəni götürmək tapşırığı qoyulmuşdu. Digər qruplar isə arxa tərəfdən şəhərə daxil olmalı idi. Onlar artıq demək olar ki, şəhərə daxil olmuşdular və şiddətli döyüşlər gedirdi. Təpədə düşmənin gücləndirilmiş mövqeləri yerləşdiyindən, buranı tutmaq bizim üçün bir qədər çətin oldu. Bu baxımdan, təpənin alınması uğrunda döyüşlər gün ərzində davam etdi. Bizim şəxsi heyət şəhər ətrafındakı meşəlik ərazidə mövqe tutmuşdu. Yaxşı yadımdadır, noyabr ayının 5-i, doğum günüm idi. Üzərimizə doğru irəliləyən düşmən tanklarından birini meşənin içərisində vurduqdan sonra digəri qorxusundan şəhərə doğru geri çəkilməyə məcbur oldu. Bu zaman ermənilərin kortəbii şəkildə üzərimizə doğru atdığı güllələrdən biri yenə ayağımdan dəydi. Mənə dərhal ilkin tibbi yardım göstərildi. Ağrıkəsici iynə vurdular, qanaxmamı dayandırıb, yaramı sarıdılar. Meşədə məndən əlavə iyirmi nəfər yaralımız və bir nəfər də şəhidimiz vardı. Biz üç gün meşədə qalmalı olduq. Şuşa və ətraf ərazilər ordumuzun nəzarətinə keçəndən sonra yollar açıldı və noyabrın 8-də bizi təxliyyə etdilər. Əvvəlcə bizi Hadrut qəsəbəsinə, orada tibbi yardım göstərildikdən sonra Füzuli Rayon Xəstəxanasına, oradan isə Bakıya, Daxili Qoşunların Hərbi Qospitalına gətirdilər. Sağ olsun həkimlərimiz. Onların sayəsində tez bir zamanda sağlamlığım bərpa olundu və xidmətimi indi də davam etdirirəm".

Azərbaycan Respublikası Prezidentinin 09.12.2020-ci il tarixli və 25.12.2020-ci il tarixli müvafiq sərəncamları ilə mayor Məmmədov Elşən Tağı oğlu "Qarabağ" ordeni, "Füzulinin azad olunmasına görə" medalı, eləcə də Azərbaycan Respublikası müdafiə nazirinin 09.12.2020-ci il tarixli müvafiq əmri ilə "Şücaətə görə" medalı ilə təltif edilib.

Məlumat üçün qeyd edək ki, mayor E.Məmmədov 2021-ci ilin may ayından 12318 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini vəzifəsində Vətənə olan şərəfli borcunu bu gün də layiqincə yerinə yetirir.

Öz fədakarlığı ilə adını tariximizin şanlı səhifəsinə yazan cəsur zabitimizə fəaliyyətində hər zaman uğurlar arzulayırıq.

**mayor Anar Əhmədov**

4-2_Layout 1 29.07.2021 15:09 Page 1



## ƏSGƏRLƏRİMİZİN DÖZÜMLÜ VƏ GÜCLÜ OLMASINI ŞƏRTLƏNDİRƏN AMİLLƏRDƏN BİRİ DƏ QİDALANMADIR



25032 saylı hərbi hissənin əsgər yeməkxanasında şəxsi heyətin qidalanması yüksək səviyyədədir. Hərbi hissə komandanlığının daima nəzarətində olan əsgər yeməkxanasında bişirilən xörəklərin keyfiyyəti, sözün əsl mənasında, müvafiq tələblərə tam cavab verir. Orada olarkən yeməkxanadakı səliqə-sahman, gigiyenik qaydaların gözlənilməsi, həmçinin, yeməyin hazırlanması ilə məşğul olan əsgər aşpazların və mülki işçilərin xüsusi geyimdə olması diqqətimi cəlb etdi. Əsasən də bu gün pandemiya şəraitində olan ölkəmizdə karantin qaydalarının tətbiq olunduğu bir vaxtda hərbi hissənin şəxsi heyətinin bu rejimə ciddi əməl etməsi təqdirəlayiq haldır. Belə ki, yeməkxanada görülən bir sıra vacib tədbirlərlə yanaşı, hərbi qulluqçular arasında sosial məsafənin saxlanılması, hər qida qəbulundan sonra masaların, mətbəx qablarının və avadanlıqların dezinfeksiyaedici məhlullarla təmizlənməsi hərbi hissə komandanlığının sözügedən məsələyə ciddi nəzarətinin nəticəsidir. Sözsüz ki, hərbi qulluqçuların belə təmiz şəraitdə qidalanmaları onlara göstərilən diqqət və qayğının təzahürüdür.





Bu sahədə görülən işlərdə böyük zəhməti olan hərbi hissənin ərzaq xidmətinin rəisi kapitan Ramil Abdurəhimov şəxsi heyətin qida rasionundan danışarkən bildirdi ki, əsasən milli mətbəximizin ləziz xörəklərinə üstünlük verilir. O, şəxsi heyətin qidalanmasının daxili işlər nazirinin müvafiq əmrinin tələbləri əsasında təşkil olunduğunu söylədi. Bununla yanaşı, gündəlik olaraq vitamin, mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir.

Onun sözlərinə görə, qidaların keyfiyyətli hazırlanması Daxili Qoşunlar komandanlığının qarşıya qoyduğu vacib tələblərdəndir. Bu məqsədlə, aidiyyəti kurs keçmiş əsgər aşpazlarla bərabər, qadın işçilərin əməyindən də istifadə olunur. Ərzaq xidmətinin rəisi onların öz vəzifələrinin öhdəsindən layiqincə gəldiklərini, qidaların tələb olunan keyfiyyətdə hazırlandığını nəzərə çatdırdı.

**kapitan Sadıq Rəfiyev**

*NÜMUNƏVİ XİDMƏT*

## VƏZİFƏ BORCUNU VİCDANLA YERİNƏ YETİRƏN HƏRBİ QULLUQÇU, MƏSULİYYƏTLİ SÜRÜCÜ

Daxili Qoşunlarda xidməti, hərbi intizamı və məsuliyyəti ilə seçilən hərbi qulluqçularımız çoxdur. Onlar barədə vaxtaşırı qəzetimizdə məlumat vermişik. Bu dəfə isə Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin nümunəvi hərbi qulluqçularından olan baş çavuş Mahir Əkbərovu sizə təqdim edirik.

Baş çavuş M.Əkbərov 1992-ci il martın 1-də Masallı rayonunun Boradigah qəsəbəsində anadan olub. Orta təhsilini doğulub boya-başa çatdığı rayonda alan hərbi qulluqçumuz 2009-2010-cu illərdə Daxili Qoşunların 67987 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2010-cu ilin oktyabr ayından 16073 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi müxtəlif vəzifələrdə xidmətini davam etdirib. 2018-ci ildən hərbi hissənin xüsusi təyinatlı dəstəsinin avtomobil yarımqrupunda sürücüdür. Hissə komandanlığının və xidmət yoldaşlarının hörmətini qazanıb, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur. Vəzifələrini vicdanla, hərbi nizamnamələrin tələblərinə uyğun yerinə yetirdiyinə görə dəfələrlə mükafatlandırılıb.

O, işinin məsuliyyətini dərk edir, xidməti vəzifələrini düzgün yerinə yetirir. İntizamlı hərbi qulluqçu və məsuliyyətli sürücüdür. Şəxsi heyətin daşınması zamanı təhlükəsizlik qaydalarına əməl edir.





Avtomobil parkından çıxmazdan əvvəl texnikanın sazlığını yoxlayır, parkda daxili qaydalara ciddi riayət edir.

Əminliklə deyə bilərik ki, hərbi qulluqçumuz texnikanın xüsusiyyətlərinə yaxşı bələddir, təhlükəsizlik və yol hərəkəti qaydalarını bilir, avtomobili diqqətlə idarə edir, ona təhkim olunmuş nəqliyyat vasitəsinin sazlığını hər gün yoxlayır, xırda nasazlıqlar aşkar olunduqda dərhal aradan qaldırılması üçün tədbirlər görür.

**kapitan Xədicə Hacızadə**

*Həkim məsləhəti*

## GÜNVURMA VƏ İSTİVURMANIN TƏSİRİNDƏN NECƏ QORUNMALI?

Yay mövsümündə havanın hərarətinin yüksək olması, atmosfer təzyiqinin normadan yuxarı qalxması insanlarda, xüsusən də meteohəssas insanlarda ciddi fəsadlar yaradır. Qızmar günəş altında uzun müddət fasiləsiz işlə məşğul olma, yürüşlər etmə insanları gün və istivurma kimi real təhlükələrlə üzləşdirir. Bu baxımdan belə təhlükələrdən qorumaq məqsədilə şəxsi heyətin tibbi maarifləndirilməsi mühüm əhəmiyyət kəsb edir.

Günvurma günəş şüalarının uzun müddət ərzində orqanizmə təsiri nəticəsində baş verir. Günvurma, əksər hallarda, başıaçıq xeyli müddət ərzində gün altında qaldıqda baş verir. Belə hallarda gün şüalarının təsiri nəticəsində baş beyinə qan axını artır və beyinin qan dövranı pozulur. Bu zaman zərərçəkəndə zəiflik, başgicəllənmə, güclü baş ağrıları, qulaqlarda küy, təngnəfəslik, nəbzin tezləşməsi, üşütmə, ürək bulanması, qusma, hərarətin 40 dərəcə C və daha artıq dərəcəyə yüksəlməsi kimi əlamətlər qeyd edilir. Ağır hallarda qıcolmalar və huşun itirilməsi də ola bilər. Bəzi hallarda bu əlamətlər dərhal, digər hallarda isə açıq günəş altında qaldıqdan və evə gəldikdən bir neçə saat sonra baş verir.

**Günvurmanın ilkin əlamətləri hiss olunduqda:**

1. Zərərçəkəni kölgəyə və ya sərin otağa aparmaq, onu sıxan paltarları çıxarmaq, yarıoturaq vəziyyətdə uzatmaq lazımdır (başı bədənindən yuxarıda olmalıdır).



**2.** Zərərçəkənə soyuq su vermək, üzünü və sinəsini soyuq su ilə silmək, başına, boynunun yan tərəflərinə, qoltuqaltı və qasıq nahiyələrinə (iri damarlar keçən yerlər) buz və ya bu mümkün olmadıqda soyuq su ilə kompres etmək lazımdır. Bu zaman əl və ayaqlara xardal kağızı da qoymaq olar. Daha bir üsul isə paltarını soyundurub zərərçəkəni soyuq suda isladılmış parçaya bükmək, başına buz qoymaqdır.

**3.** Zərərçəkənin hərarəti normaya çatdıqda onu quru parçaya və ya dəsmala bükmək olar.

**4.** Xəstənin vəziyyəti ağırlaşarsa, dərhal "təcili yardım" çağırmaq lazımdır.

**5.** Huşunu itirdiyi halda isə zərərçəkənə naşatır spirti iylətmək, tənəffüs olmadıqda süni tənəffüs vermək tələb olunur.

**İstivurma əsasən uzun müddət ərzində havası boğanaq olan yerlərdə (hamamda, saunada, avtobusda, metroda və s.) qalma zamanı, çölə çıxarkən havaya uyğun olmayaraq çox isti geyimdən istifadə edildiyi hallarda, çimərlikdə voleybol, futbol və s. oyunlar oynanıldığı zaman baş verir. Uşaqların və yaşlı adamların orqanizmində istilik mübadiləsi zəif şəkildə tənzimləndiyi üçün istivurma onlarda daha tez-tez baş verir.**

İstivurma, bir çox hallarda, qəflətən meydana çıxır: ilk baxışdan kifayət qədər sağlam görünən insan birdən-birə əzgin olur, onun hərarəti 40 dərəcə C və daha artıq dərəcəyə yüksəlir, bəzi hallarda qıcolmalar, sayıqlama və halusinasiyalar (qarabasmalar) qeyd edilir. Xəstənin sifəti əvvəlcə qızarır, sonra isə birdənbirə avazıyır. Nəbz sürətlənir, çətinliklə əllənir, tənəffüs səthi olur, bəzən qusma da qeyd edilir.

İstivurma zamanı ilk tibbi yardım günvurmada olduğu kimidir.

Zərərçəkənin vəziyyəti ağırlaşarsa, dərhal "təcili yardım" çağırmaq və ya ilk tibbi yardım göstərdikdən sonra onu mümkün qədər tez bir zamanda yaxınlıqdakı tibb müəssisəsinə çatdırmaq tələb olunur.

Çimərlikdə olarkən alkoqollu içkilərin qəbulu qəti şəkildə qadağandır. Alkoqol orqanizmdə termoriqulyasiyanı (istiliyin tənzimi) kəskin şəkildə pozduğu üçün bu, istivurmanın səbəbi ola bilər.

**DQBİ-nin Tibb xidməti**

## Sayıqlıq, çeviklik və qətiyyət əsgər üçün vacib keyfiyyətlərdir

Daxili Qoşunların 99713 saylı hərbi hissəsinin yüksək nizam-intizamı ilə fərqlənən komendant bölüyünün hərbi qulluqçusu əsgər Cavidan Yunusov 2000-ci il avqustun 8-də Xaçmaz rayonunun Ağtala kəndində anadan olub. Orta təhsilini doğma kənd məktəbində başa vuran Cavidan 2017-ci ildə Xaçmaz rayonu Nərəcan kənd peşə məktəbinə qəbul olunub. 2019-cu ildə həmin məktəbi bitirib, 2020-ci ildə isə müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda komendant bölüyündə atıcı vəzifəsində xidmət edir. O, müddətli həqiqi hərbi xidmətini başa çatdırdıqdan sonra müddətdən artıq həqiqi hərbi xidmətə keçməyi, həyatını hərbçi peşəsinə bağlamağı arzulayır.

Komendant bölüyündə xidmət etməyin böyük məsuliyyət olduğunu söyləyən əsgər C.Yunusov bildirdi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, nizam-intizamının möhkəmləndirilməsi üçün hər gün hərbi qulluqçularla məşğələlər keçirilir. Məşğələlər zamanı fəallıq göstərərək hərbi peşənin sirlərinə dərindən yiyələnməyə səy göstərir, komandirlərdən öyrəndiklərini hərbi xidmətə yeni qəbul olunmuş yoldaşlarına da öyrətməyə çalışır.

Öz intizamı ilə digər yoldaşlarına nümunə olmağa çalışan hərbi qulluqçumuz



vətənpərvərlik əqidəsinə sadiqdir. Komendant bölüyündə xidmət etməkdən qürur duyduğunu vurğulayan əsgər C.Yunusov ötən il Vətən müharibəsində qazandığımız qələbədən danışaraq, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə Daxili Qoşunların hərbi qulluqçularının göstərdikləri igidlik nümunələrinin gənclərə örnək olduğunu dedi, bu gün qalib ölkənin əsgəri kimi iftixar hissi yaşadığını nəzərimizə çatdırdı.

**99713 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyə yeni peyk sisteminin inkişafı layihəsinə başlayır

Türkiyənin Müdafiə Sənayesi Başqanlığı (SSB) ilə TUSAŞ şirkəti arasında GÖKTÜRK Yeniləmə Kəşfiyyat Nəzarət



Peyk Sisteminin İnkişafı Layihəsinə dair müqavilə imzalanıb. "Poliqon" xəbər verir ki, bu barədə Türkiyə Müdafiə Sənayesi (SSB) başqanı İsmail Dəmir özünün rəsmi "Twitter" səhifəsində məlumat verib.

"Layihə ilə GÖKTÜRK-1 Peyk Sisteminin istismar müddəti başa çatdıqdan sonra Türkiyə Silahlı Qüvvələrinin yüksək elektrooptik peyk görüntü ehtiyaclarını qarşılamağı hədəfləyirik", – deyə İsmail Dəmir bildirib.

### Belarusun yeni robotlaşdırılmış YARS kompleksi – "Vistl"

Belarusun "Belspetsvneştexnika" Dövlət Xarici Ticarət Unitar Müəssisəsi tərəfindən "Vistl" robotlaşdırılmış YARS kompleksi hazırlanıb. "Poliqon" xəbər verir ki,



"Vistl" robotlaşdırılmış YARS kompleksi ilk dəfə "MILEX-2021" 10-cu Beynəlxalq Silah və Hərbi Texnika Sərgisi zamanı nümayiş etdirilib.

Kompleks 57 mm-lik S-5 raketlərinin atılması üçün 18 istiqamətləndirici borular paketi ilə təchiz olunub. Döyüş maşını yerindən 4000 m-ə qədər məsafədə yerləşən düşmənin canlı qüvvəsinə, zirehli və zirehsiz hədəflərə qarşı effektiv atəş açmaq üçün təyin edilib.

### ABŞ-da "Paladin" M109A7 haubitsanın yeni prototipləri hazırlanır

ABŞ-ın "Picatinny Arsenal" şirkəti tərəfindən "Paladin" M109A7 özüyeriyən haubitsanın yeni prototiplərinin hazırlanmasına başlanıb. "Poliqon"un xarici mediaya istinadən verdiyi xəbərə görə, ABŞ Silahlı Qüvvələrinin təkmilləşdirilmiş ERCA uzunmənzilli artilleriya sistemi proqramı çərçivəsində ilk mərhələdə 4 ədəd 155 mm-lik haubitsanın prototipi hazırlanacaq.



ERCA proqramı çərçivəsində hazırlanacaq M109A7 özüyeriyən haubitsanın ilk prototipinin 2021-ci il ərzində ordu təlimlərində sınaqdan keçirilməsi planlaşdırılıb.

### Polşa "Abrams" tankları alacaq

Polşa ABŞ-ın M1A2 SEP v3 "Abrams" əsas döyüş tanklarının alınması ilə bağlı son qərarı verib. Hökumət, ümumilikdə, dörd tank taborunun yenidən silahlanması üçün vəsait ayırıb. "Poliqon" xəbər verir ki, bu barədə Polşa Baş nazirinin müavini jurnalistlərə müsahibəsi zamanı bildirib.



Nə qədər tank alınması planlaşdırıldığını dəqiq açıqlamayan nazir müavini alınan texnikanın dörd tank taborunu təchiz etmək üçün kifayət edəcəyini söyləyib.

Polşa yeni tankları ölkənin şərqində yerləşdirməyi planlaşdırır.

## Allah rəhmət eləsin

Daxili Qoşunların və 12318 saylı hərbi hissənin komandanlığı **mayor Əliyev Elşən Maarif oğlunun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların komandanlığı mayor Rasim Mancanova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16075 saylı hərbi hissənin komandanlığı mayor Amil Nəsirliyə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının Baş İdarəsi.

Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000